# “Standartların rolu və əhəmiyyəti” mövzusunda maarifləndirici seminar

**İyunun 24-də Milli Mətbuatın 150 illiyi münasibətilə Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən media nümayəndələri üçün "Standartların rolu və əhəmiyyəti" mövzusunda maarifləndirici seminar keçirilib. Seminar media nümayəndələrini standartlaşdırma fəaliyyəti ilə daha yaxından tanış etmək, dövlət standartlarının işlənib hazırlanması, qəbul olunması və tətbiqi mexanizmləri barədə məlumatlılığı artırmaq məqsədilə təşkil edilib.**



Azərbaycan Standartlaşdırma İnstitutunun baş direktorunun müavini, baş direktor vəzifəsini müvəqqəti icra edən Kəmalə Məmmədzadə qeyd edib ki, Azərbaycan Standartlaşdırma İnstitutunun fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Belə ki, institut standartlaşdırma üzrə beynəlxalq layihələrdə ölkəmizi təmsil edir. 2025-ci ilin yanvar-may aylarında qəbul olunan 86 dövlət standartı qəbul olunub. 2021-ci ildən 2025-ci ilin may ayınadək 46 təlim keçirilib, ümumilikdə müvafiq müəssisələrə 283 sertifikat verilib.

AZSTAND-ın Uyğunluğun qiymətləndirilməsi və idarəetmə sistemlərinin metodologiyası şöbəsinin müdiri Gülbacı Əliyeva bildirib ki, standartlar mal və xidmətlərin keyfiyyətlərini yaxşılaşdırmağa kömək edir: "Bununla yanaşı xərcləri azaltmağa və mənfəəti artırmağa dəstək göstərir. Standartlaşdırma biznesə rəqabət üstünlüyü verir. Mal və ixraclar üçün ixrac bazarlarını açır. Yeni müştərilərə mühüm imkanlar yaradır və mövcud biznesi gücləndirir".

AZSTAND-ın baş mütəxəssisi Cahandar Muradov isə deyib ki, ESG (Ətraf Mühit, Sosial və Korporativ İdarəetmə) prinsipləri təşkilatların dayanıqlı və məsuliyyətli fealiyyət göstərməsini təmin edir. "Standart ölçülə bilən əsas fəaliyyət göstəriciləri (KPI) ilə inteqrasiya olunmuş həllər təklif təklif etməklə "E", "S" və "G"nin bütün elementlərini əhatə edən, yüksək səviyyəli prinsipləri müəyyənləşdirən qaydalar göstərilir. ESG prinsipləri dövlət sektorunda, özəl şirkətlərdə və qeyri-hökumət təşkilatlarında tətbiq edilə bilər.

AZSTAND-ın Elektrotexnika, informasiya texnologiyaları və telekommunikasiya sahələrinin standartlaşdırılması şöbəsinin müdiri Firuzə Bəhri süni intellekt strategiyası barədə məlumat verib: "Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2025-2028-ci illəri əhatə edən "Süni İntellekt Strategiyası" təsdiq edilib. Strategiya ölkənin süni intellekt sahəsində inkişafını sürətləndirmək, rəqəmsal inkişafı dəstəkləmək və qlobal süni intellekt ekosistemində Azərbaycanın rolunu gücləndirmək məqsədi daşıyır".

Tədbirin sonunda media nümayəndələrinin sualları cavablandırılıb, fikir mübadiləsi aparılıb.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika.- 2025.- 25 iyun (№ 129).- S.12.